# Lider diplomatiyası kontekstində

# Azərbaycan-Türkiyə strateji müttəfiqliyi

***Azərbaycan-Türkiyə əlaqələri müasir beynəlxalq münasibətlər sistemində unikal və nümunəvi əməkdaşlıq modelinə çevrilib. Bu münasibətlərin ideoloji dayağını təşkil edən "Bir millət, iki dövlət" prinsipi tarixi və emosional bağlılıq ifadəsi, konkret geosiyasi, iqtisadi və təhlükəsizlik çərçivəsində düşünülmüş strateji platformadır. Tarix, dil və mədəniyyət baxımından ortaq köklərə sahib olan iki dövlət XX əsrin sonlarından etibarən, xüsusilə Azərbaycanın müstəqilliyini bərpa etməsindən sonra qarşılıqlı etimad və inteqrasiya əsasında çoxşaxəli əməkdaşlıq qurublar. Türkiyənin ölkəmizin müstəqilliyini tanıyan ilk dövlət olması Azərbaycanın beynəlxalq sistemdə tanınması, enerji resurslarının qlobal bazarlara çıxarılması və hərbi-siyasi mövqeyinin güclənməsi istiqamətində mühüm rol oynadı.***




Bugünkü mərhələdə Azərbaycan-Türkiyə münasibətləri yalnız ikitərəfli əlaqələr çərçivəsində məhdudlaşmır. Hər iki dövlət regional və qlobal məsələlərdə, xüsusilə enerji təhlükəsizliyi, logistik şəbəkələrin qurulması (Zəngəzur dəhlizi, TANAP və TAP layihələri), terrorla mübarizə, sülh təşəbbüsləri və regional inteqrasiya kimi sahələrdə koordinasiyalı şəkildə çıxış edir. Beləliklə, bu tərəfdaşlıq həm regionun sabitliyinə töhfə verir, həm də Avrasiya məkanında geosiyasi balansın formalaşmasında mühüm rol oynayır. Türk dünyasında birliyin möhkəmləndirilməsi də Azərbaycan və Türkiyənin müştərək fəaliyyət istiqamətləridir. Hər iki ölkə Türk Dövlətləri Təşkilatı çərçivəsində əməkdaşlığın dərinləşdirilməsinə sadiqdir və bu birliyin gələcək inteqrasiya modelinə çevrilməsi üçün iqtisadi, humanitar, siyasi platformalarda fəal iştirak edir. 44 günlük İkinci Qarabağ müharibəsi zamanı və sonrakı mərhələdə isə Azərbaycan-Türkiyə birliyi özünün real gücünü nümayiş etdirdi. Müharibə dövründə Türkiyənin verdiyi siyasi və mənəvi dəstək yalnız Azərbaycan xalqı tərəfindən deyil, beynəlxalq ictimaiyyət tərəfindən də tərəfdaşlıq sədaqətinin və regional güc balansının təzahürü kimi dəyərləndirildi. Məhz bu dövr iki ölkə arasında münasibətlərin strateji ittifaq səviyyəsində formalaşdığını təsdiqlədi.

**(davamı 3-cü səhifədə)**

**(əvvəli 1-ci səhifədə)**

Bu qardaşlığın ən təcəssüm olunmuş nümunələrindən biri Prezident İlham Əliyevin Türkiyənin Kahramanmaraş şəhərində "Azərbaycan" məhəlləsinin açılışında iştirakıdır. Zəlzələdən zərər görmüş bölgəyə Azərbaycanın göstərdiyi humanitar dəstək bir daha təsdiqlədi ki, bu münasibətlər təkcə rəsmi diplomatiya ilə məhdudlaşmır, xalqlar arasında real həmrəylik və sosial məsuliyyət nümunəsidir. Prezident İlham Əliyevin mərasimdə səsləndirdiyi fikirlər bu münasibətlərin fəlsəfi dərinliyini də əks etdirdi: "Zəlzələ bölgələrində yaşayan bütün insanlara Azərbaycan xalqının hörmətini, sevgisini ifadə edirəm. Siz bilirsiniz və bilməlisiniz ki, Azərbaycanda sizin 10 milyon bacı-qardaşlarınız var. Azərbaycanlılar da bilirlər ki, Türkiyədə 80 milyondan çox bacı-qardaşlarımız var".

Müasir dövrdə ölkələrarası münasibətlərin formalaşmasında və inkişafında lider diplomatiyasının rolu getdikcə daha çox nəzərə çarpır. Xüsusilə milli maraqların koordinasiyası, strateji ittifaqların qurulması və uzunmüddətli əməkdaşlıq gündəliklərinin müəyyən edilməsində dövlət başçılarının şəxsi münasibətləri və siyasi sinxronluğu həlledici faktordur. Bu baxımdan, Azərbaycan ilə Türkiyə arasında mövcud olan ali səviyyəli əlaqələr Prezident İlham Əliyevlə Prezident Rəcəb Tayyib Ərdoğanın uğurunun təzahürüdür. Bu lider tandeminin siyasi iradəsi nəticəsində Azərbaycan-Türkiyə münasibətləri təkcə ikitərəfli əlaqələr, eyni zamanda regionun gələcəyini formalaşdıran və beynəlxalq nizamda alternativ güc mərkəzi yaradan strateji əməkdaşlıq müstəvisinə keçib. İki liderin müntəzəm görüşləri, həmrəylik mesajları və birgə bəyanatları qarşılıqlı fəaliyyətin institusional əsaslarını möhkəmləndirir və yeni dövr üçün siyasi yol xəritəsi təqdim edir.

2021-ci il 15 iyun tarixində Şuşada imzalanmış Şuşa Bəyannaməsi Azərbaycan-Türkiyə münasibətlərinin yeni mərhələyə qədəm qoymasının simvolik və strateji təcəssümüdür. Sənəd tarixi dəyərlərə söykənən dostluğun və qardaşlığın hüquqi, beynəlxalq çərçivədə müttəfiqlik münasibətlərinə transformasiyasını rəsmiləşdirdi. Prezident İlham Əliyev Kahramanmaraşda "Azərbaycan" məhəlləsinin açılışında çıxışı zamanı bu bəyannaməyə istinad edərək bildirdi: "Dörd il bundan öncə hörmətli Cümhurbaşqanı ilə Şuşa şəhərində imzaladığımız Şuşa Bəyannaməsi bizim əlaqələrimizi ən yüksək zirvəyə qaldırmışdır. Şuşa Bəyannaməsi bizim əlaqələrimizi rəsmən müttəfiqlik səviyyəsinə qaldırmışdır. Biz dostuq, qardaşıq, müttəfiqik. Türkiyə və Azərbaycan - iki qardaş ölkə həm siyasi, həm iqtisadi, həm enerji, nəqliyyat, hərbi və bütün başqa sahələrdə bir-birinin yanında inamla, uğurla irəliləyir".

Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir" ifadəsi və Ümummilli Lider Heydər Əliyevin "Biz bir millət, iki dövlətik" tezisi dövrün siyasi konfiqurasiyasında da aktuallığını saxlayır. Bu tezislər faktiki olaraq, iki ölkə arasında diplomatik davranış və beynəlxalq mövqelərin formalaşması üçün konseptual çərçivə rolu oynayır. 44 günlük Vətən müharibəsi zamanı Türkiyənin Azərbaycana verdiyi açıq siyasi və mənəvi dəstək, eləcə də sonrakı bərpa və quruculuq mərhələsində göstərilən praktiki yardım bu sözlərin real həyatda necə təcəssüm etdiyini göstərdi. Humanitar sahədə, xüsusilə təbii fəlakətlər zamanı nümayiş etdirilən kömək, o cümlədən zəlzələdən zərər çəkmiş bölgələrə Azərbaycanın yardımı qardaşlığın sübutudur. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, biz yaxşı günlərdə də, ağır günlərdə də daim bir-birimizin yanındayıq, bir-birimizin gücünü artırırıq. Bu birlik artıq qlobal təsir gücünə malikdir. Türkiyə-Azərbaycan strateji ittifaqı bütün Avrasiya regionu üçün təhlükəsizlik, sabitlik və inkişafın vacib təminatçılarından birinə çevrilməkdədir. Bu kontekstdə birlik, həmrəylik, təhlükəsizlik, iqtisadi dirçəliş və ortaq sivilizasiya üçün bir model kimi dünya siyasətində yeni mərhələni təmsil edir.

Yada salaq ki, 2023-cü il fevralın 6-da Türkiyənin Kahramanmaraş vilayətində baş verən dağıdıcı zəlzələ regionun emosional və mənəvi tarazlığını sarsıtdı. Minlərlə insanın həyatına son qoyan fəlakət Türkiyə üçün növbəti böyük sınağa çevrildi. Amma bu acı sınaq gerçək həmrəylik və qardaşlıq dəyərlərinin də sınağa çəkildiyi tarixi məqam oldu. Məhz bu çətin anda Azərbaycanın nümayiş etdirdiyi doğmalıq və fədakarlıq qlobal miqyasda insanlıq və siyasi sabitliyin nümunəsi kimi qiymətləndirilə bilər. Azərbaycan dövləti ilk saatlardan etibarən qardaş Türkiyənin yanında olduğunu bəyan etdi. Prezident İlham Əliyevin tapşırığı ilə dövlət strukturları, fövqəladə hallar üzrə təlimli qüvvələr, səhiyyə qrupları və texniki yardımlar dərhal hərəkətə keçdi. Amma rəsmi institutların fəaliyyəti ilə yanaşı, Azərbaycan cəmiyyətinin bütün təbəqələrinin - qeyri-hökumət təşkilatlarının, könüllülərin, sadə vətəndaşların prosesdə fəal iştirakı iki xalq arasında dərin mənəvi bağların təzahürüdür. Dövlət başçısı İlham Əliyev zəlzələdən dərhal sonra Türkiyənin Azərbaycandakı səfirliyinə başsağlığı ziyarəti ilə həm rəsmi, həm də simvolik səviyyədə bağlılığı ifadə etdi. Prezidentin səfirlə söhbətində səsləndirdiyi fikirlər isə hadisəyə təkcə insani yox, siyasi və psixoloji təhlil prizmasından yanaşmanın da nümunəsi idi. Ölkə başçısının fikirləri bütün Azərbaycan xalqının qardaş ölkəyə olan inamının və dəstəyinin ifadəsi kimi yadda qaldı.

Ölkə başçısı qeyd etdi ki, əminəm ki, Türkiyə bu acı sınaqdan da şərəflə çıxacaq, bunu da aşacaq. Bu bəyanat beynəlxalq aləmə Türkiyənin dayanıqlığı və Azərbaycanın ona sonsuz inamı barədə mesaj vermək baxımından mühüm siyasi məna daşıdı. Təbii fəlakət, eyni zamanda beynəlxalq münasibətlər kontekstində yeni bir humanitar həmrəylik modelini formalaşdırdı. Azərbaycan-Türkiyə münasibətləri bir daha sübut etdi ki, geosiyasi yaxınlıq və ortaq maraqlar nə qədər vacib olsa da, insani və mənəvi təməl üzərində qurulan ittifaqlar daha uzunömürlü və sarsılmaz olur. Beynəlxalq media və regional müşahidəçilər tərəfindən də qeyd edildi ki, Azərbaycanın çevik reaksiyası, yardım miqyası və əhalinin könüllü iştirakı Cənubi Qafqazda və daha geniş coğrafiyada siyasi liderliyin və strateji qardaşlığın nümunəsidir.

Prezident İlham Əliyevin birbaşa göstərişi ilə Kahramanmaraşda "Azərbaycan" məhəlləsinin salınması isə ölkəmizin Türkiyəyə göstərdiyi humanitar dəstəyin qardaşlığın, sosial və siyasi dəyərlərin sintezini özündə cəmləyir. Bu yaşayış məhəlləsində 90-dan çox bina inşa olunub, 1200 mənzil istifadəyə verilib. Kompleksin tərkibinə məktəb, uşaq bağçası, ictimai xidmət binaları və yaxın gələcəkdə istifadəyə veriləcək mədəniyyət mərkəzi də daxildir. Prezident İlham Əliyevin vurğuladığı kimi, bu, çox gözəl hadisədir ki, türkiyəli bacı-qardaşlarımız bu mənzillərdə yaşayacaqlar. "Azərbaycan" məhəlləsi, gələcək nəsillər üçün də xalqlar arasında birliyin rəmzinə çevriləcək fiziki və mənəvi abidə olacaq.

**Nəzrin ELDARQIZI,**
**"Respublika".**

Respublika.- 2025.- 22 iyun (№ 127).- S.1;3.